# "Zəlimxan nə desə saz dilindədi..."

**Xalq şairi Zəlimxan Yaqubun məqalə, poema və şeirlərinin toplandığı "Zəlimxan nə desə saz dilindədi..." adlı kitabı işıq üzü görüb.**




Azərbaycan Aşıqlar Birliyindən bildirilib ki, çap olunan kitab 2008-ci ildən 2016-cı ilədək Azərbaycan Aşıqlar Birliyinə rəhbərlik etmiş Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 75 illik yubileyinə həsr olunub.

Kitaba yazdığı "Ömrü, həyatı nağıl, dastan, ünvanı saz olan şair" adlı geniş "Ön söz"də Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun qeyd etdiyi kimi, aşıq yaradıcılığına, bütövlükdə ozan-aşıq sənətinə və bu sənətin daşıyıcılarına bağlılıq şairin yaradıcılığında mühüm yer tutur: "Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən onun fitri istedadı ilə bağlıdırsa, digər tərəfdən saza bağlılığındadır".

Kitabda şairin aşıq sənəti və ustad sənətkarlarla bağlı yazdığı məqalələr, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr, eləcə də bu sənətə və ustad sənətkarlara həsr etdiyi şeir və poemaları yer alıb.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab aşıq sənətinin tədqiqi və tədrisi ilə məşğul olan mütəxəssislər, aşıqlar, eləcə də bu sənətə maraq göstərən, ali və orta ixtisas məktəblərində müvafiq ixtisasa yiyələnən gənclər üçün də əhəmiyyətlidir.

Kitabı nəşrə hazırlayan və redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, elmi məsləhətçi Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı və rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir.

Azərbaycan.- 2025.- 22 aprel (№79).- S.11.